# 65 İLLİK ÖMÜR SALNAMƏSİ



Elə ömürlər var ki, varlığı ilə yoxluğunun fərqi bilinmir. Elə ömürlər də var ki, sağlığında salnaməyə çevrilir.

Əziz oxucu: Söhbət ömrünün 65 ilini arxada qoymuş, safəqidəli, təmizqəlbli, dövlətinə, xalqına, cəmiyyətə yararlı bir ziyalı xanım Mahirə Nağı qızı Hüseynovadan gedir.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru, AYB-nin üzvü, Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Dövlət Dili Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvü, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova 1960- cı il noyabr ayının 4-də Naxçıvanda anadan olmuşdur. 1968-ci ildə Naxçıvan rayonu (indiki Babək rayonu) Xalxal kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuş, yaşayış yerini dəyişməklə əlaqədar olaraq, 1978-ci ildə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 saylı orta məktəbi bitirmişdir. Mahirə Hüseynova 1980- ci ildə V.İ.Lenin adına Azərbaycan Pedoqoji İnstitutunun (ADPU-nun) filologiya fakültəsinə qəbul olmuşdur.

Tələbəlik insana təkcə elm, bilik, və diplom vermir, bu dövr insan üçün yeni və müstəqil həyatın astanasıdır. Tanrı bu tələbəlik həyatını Mahirə xanıma da nəsib etmişdir. Təhsil aldığı illərdə öz fəallığı ilə seçilmiş, fakültədə keçirilən bütün tədbirlərdə iştirak etmiş, tələbə və müəllim heyətinin dərin rəğbətini qazanmışdır.

O, 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən də təyinatla əvvəlcə Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta məktəbdə, sonra isə Bakı şəhəri Nərimanov rayonu G.Əsgərova adına 43 saylı məktəbdə ixtisası üzrə işləmişdir. Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" adına layiq görülmüş Mahirə Hüseynova qızıl döş nişanı ilə təltif edilmiş, 2003-cü ildə isə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi olmuşdur. Bundan başqa 2004-cü ildə Azərbaycan Respublikasının "qabaqcıl təhsil işçisi" döş nişanı, 2007-ci ildə "Qızıl qələm", "İlin adamı" Media Mükafatı Laureatı və s. mükafatlara layiq görülmüşdür.

2008-ci ildən Azərbaycan Dövlət Pedoqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasının müəllimi kimi fəaliyyətə başlamış Mahirə xanım 2004-cü ildən baş müəllim, 2015-ci ildən həm Müasir Azərbaycan dili kafedrasının dosenti, həm də həmin ildən kafedranın müdiri vəzifəsinə təyin olunmuşdur. 2018-ci ildən Müasir Azərbaycan dili kafedrasının professoru adını almışdır. Həmin ilin dekabr ayının 10-dan Azərbaycan Dövlət Pedoqoji Universitetinin Filologiya fakültəsinin dekanı vəzifəsinə seçilmişdir.

2021-ci ildən Azərbaycan Dövlət Pedoqoji Universitetinin Beynəlxalq Əlaqələr üzrə Prorektoru vəzifəsində çalışır.

Həyatda elə insan var ki, bütün ömrü boyu vardövlət, xəzinə toplamağa çalışır. Amma elə insanlar da var ki, xeyirxah işi, nəcib əməli ilə cəmiyyət, xalq üçün xatırlanacaq, gözəl əməl sahibi kimi dillərdə adı hörmətlə çəkilir. Hər bir insanın əməli doğrudan da onun həyatının güzgüsüdür. Naxçıvan elinin ziyalı qızı Mahirə xanım da belə insanlardan biridir.

Mahirə Nağı qızı ADPU-nin müəllim və tələbələrin Orduya dəstək kampaniyasında fəal iştirakını təşkil etdiyinə görə 2020-ci il 4 noyabr Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən Milli Ordu-100 medalı ilə təltif edilmişdir. Eləcə də Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Fəxri Üzvü adına layiq görülmüşdür.

2021-ci ildə "Səməd Behrəngi" Beynəlxalq mükafatını almış və həmin ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Əməkdar müəllim, nəğməkar şair Mahirə Nağı qızının poeziya dünyasına , yaradıcılığına nəzər saldıqca, onun qəlblərə məlhəm olan şeirləri, ana dilinə həsr etdiyi poetik nümunələri xüsusi yer tutduğunu görürük.

Sadəlik insanın yaraşığı, təvazökarlıq isə gözəlliyidir deyirlər. Hər iki xüsusiyyət sözün əsl mənasında Mahirə Hüseynovada. Doğru deyirlər ki, həyatın mənası yaşanan illərin sayında deyil, onun necə yaşamasındadır. Vətənpərvər ziyalı, zəhmətkeş alim, professor Mahirə xanım da məhz bu cür ömür yaşayan ziyalılarımızdandır.

Bu yazdıqlarım sadəcə bir yubiley gününə aid deyil- həm də bir ömrün izləridir.

65 il... Bəzən bir göz qırpımı qədər sürətli, bəzən bir ömür qədər dərin...

Mahirə xanımın ömür yoluna nəzər saldıqda, insan bir daha əmin olur ki, əsl xoşbəxtlik insanın mənəvi səviyyəsi, dünyagörüşü, əqidəsi, amalı, vətəndaşlıq mövqeyi ilə qırılmaz sürətdə bağlıdır.




2020-ci ildən "Linqvistika problemləri" Beynəlxalq Elmi jurnalının təsisçisi və baş redaktoru.

"Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnalının redaksiya şurasının üzvüdür.

BDU-nun nəşr etdirdiyi "Türk filologiyası" jurnalının redaksiya heyətinin üzvüdür.

"Elmi iş" jurnalının redaktorudur.

"Mahmud Kaşğarlı" jurnalının təsisçisi və baş redaktorudur.

M.Hüseynova 2021-ci ildən Ali Attestasiya Komissiyasının Ekspert Şurasının sədridir.

Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə araşdırmaları ilə seçilən Mahirə xanım elmlə yanaşı həm də yazıb-yaratmaqla da məşğul olur. 28 elmi kitabın- monoqrafiya, dərs vəsaiti, metodik vəsait, 5 proqramın və 16 bədii (şeirlər) kitabın müəllifidir.

Tanınmış alim və pedoqoq, ictimai xadim, şair, Azərbaycan Dövlət Pedoqoji Universitetinin (ADPU) prorektoru, professor Mahirə Nağı qızının poeziyasında vətənə olan sevgisini görürük.

Azərbaycan poeziyasında tanınan və sevilən Mahirə Nağı qızı Türk dünyasının bir sıra universitetlərinin fəxri professorudur. Onun çoxlu sayda şeirlərinə musiqi bəstələnib.

Filologiya üzrə elmlər doktoru, professor, İndi Mahirə xanım dönüb arxaya baxarkən görür ki, insan ömrü sadəcə illərlə deyil, qoyduğu izlərlə ölçülür...

Çalışdığı yerlərdə heç kimin xətrinə dəymədi, kiminsə haqqını yemədi. Gücü çatandan imkansıza əl tutdu, çalışdığı zaman kəsiyində hamının ürəyini fəth etdi. Öz işinə məsuliyyətlə yanaşdı. Mən əminliklə deyirəm ki, Mahirə xanımın həyat kredosu dəyişməz olaraq qalacaq.

Belə deyək kitablara sığmayan layiqli alim ömrü...

Onun ömür yolu haqqa doğru üz tutdu, o, nurlu, vüqarlı insan kimi yaşayır bu dünyada...

Tanınmış ziyalı-alim əməkdar müəllim, prezident təqaüdçüsü, professor Mahirə xanımı anadan olmasının 65 illik yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür can sağlığı, işlərində və elmi fəaliyyətində uğurlar arzulayırıq.

Mahirə xanım 65 illik həyat yolunuz mübarək olsun!

***Məsmə İSMAYILOVA,***
***ADPU, xarici dillər mərkəzi,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***baş müəllim.***